# ROKOL® SİNTETİK SUPER MAT BOYA

## SİNTETİK SUPER MAT BOYA




### Məhsul haqqında
Alkid əsaslı, yuyula bilən, mükəmməl örtmə qabiliyyətinə malik, uzun ömürlü, mat görünüşlü sintetik son qat divar, taxta və metal boyasıdır.

### İstifadə sahələri
Bu boyadan:
• məcun vurulmuş, astarlanmış hər cür beton, taxta və metal səthlərin boyanmasında istifadə olunur.

### Üstünlükləri
• mükəmməl örtmə qabiliyyətinə malikdir;
• uzun ömürlüdür;
• asan yuyulur;
• tez quruyur.

### İstifadə qaydaları
***Səthin hazırlanması.*** Boya çəkiləcək səthlər quru, tozsuz, təmiz və hamar olmalı, növünə görə uyğun məcunla suvanmalı, metal səthlərə 1 qat **ROKOL Antipas** və ya digər oxşar məhsulla, taxta səthlərə isə **KONTRAJUK** və ya digər oxşar məhsulla səth qoruyucusu çəkilməlidir. Əvvəllər boyanmış səthlərə boya çəkməzdən əvvəl 1 qat **ROKOL BİNDER** binder astar və ya digər oxşar məhsul çəkilərsə, sərfiyyat azalar və boyanın səthə yapışma müqaviməti artar.

***Qarışığın hazırlanması.*** ROKOL Sintetik Super Mat boya **ROKOL Sintetik Tiner**-lə və ya digər oxşar məhsulla durulaşdırılmalıdır.

***Tətbiqi.*** Boya səthə 2 qat çəkilməlidir. Qatlar arasındakı müddət 24 saat olmalıdır. Fırça və ya vərdənə ilə səthə çəkilməlidir.

### Texniki göstəricilər

| | |
|---|---|
| **Məhsulun quruluşu** | alkid əsaslı |
| **Quru qalığı** | 82% |
| **Sıxlığı** | 1,61 kq/litr |
| **Tam quruma müddəti** | 24 saatdan sonra |
| **Qablaşdırma** | 0,85; 3,75 və 15,0 litrlik dəmir qablarda |

### Sərfiyyat
1 $m^2$ səthə tək qata 120-140 qr boya istifadə oluna bilər.

### Saxlama müddəti və qaydası
Ağzı açılmamış qablarda, quru və sərin şəraitdə 2 il saxlanıla bilər.

### Xəbərdarlıqlar
• boya buxarının nəfəsə daxil olmaması və həmçinin dəriyə və gözə düşməməsi üçün fərdi mühafizə vasitələrindən istifadə edin;
• uşaqların əli çatmayan yerlərdə saxlayın;
• oddan qoruyun.

### Zəmanət və texniki dəstək
• texniki göstəricilərdə qeyd edilmiş məlumatlar elmi və təcrübi biliklərə əsaslanır;
• "Mətanət A" şirkəti məhsulun müvafiq texniki şərt və dövlət standartlarına uyğunluğuna zəmanət verir;
• şirkətin mütəxəssislərinin rəhbərliyi altında görülən işlər istisna olmaqla, digər istifadəçilər tərəfindən təlimatdan kənar istifadə zamanı yarana biləcək problemlərə görə "Mətanət A" şirkəti məsuliyyət daşımır;
• şirkət elmi-texniki inkişafla bağlı məhsulda dəyişiklik etmə hüququnu özündə saxlayır;
• texniki dəstək və ya daha geniş məlumat almaq üçün "Mətanət A" şirkətinə müraciət edin!